**Azərbaycan Respublikası Energetika Nazirliyinin aparatının və struktur bölmələrinin (şöbələri və sektorları) əsasnamələrinin, habelə inzibati və yardımçı vəzifələr üzrə vəzifə təlimatlarının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikası Energetika Nazirliyinin 2018-ci il 10 yanvar tarixli 3 nömrəli əmri ilə nazirliyin aparatının yeni strukturunun və ştat cədvəlinin təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Nazirliyin aparatının və struktur bölmələrinin (şöbələri və sektorları) aşağıdakı əsasnamələri təsdiq edilsin:

1.1. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatı haqqında Əsasnamə" (əlavə olunur);

1.2. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Daxili nəzarət şöbəsi haqqında Əsasnamə"*

1.3. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Neft-qaz şöbəsi haqqında Əsasnamə"*

1.4. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektrik və istilik enerjisi şöbəsi haqqında Əsasnamə"*

1.5. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsi haqqında Əsasnamə"*

1.6. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsi haqqında Əsasnamə"

1.7. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsi haqqında Əsasnamə"

1.8. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramları və layihələr sektoru haqqında Əsasnamə"*

1.9. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat şöbəsi haqqında Əsasnamə"*

1.10. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Məxfi şöbəsi haqqında Əsasnamə"

1.11. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Maliyyə şöbəsi haqqında Əsasnamə"

1.12. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Ümumi şöbəsi haqqında Əsasnamə"

1.13. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Çağrı mərkəzi sektoru haqqında Əsasnamə"

1.14. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Protokol xidməti sektoru haqqında Əsasnamə"

1.15. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Təminat şöbəsi haqqında Əsasnamə"*

1.16. *"Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi şöbəsi haqqında Əsasnamə"*

1.17. "Azərbaycan Respublikası Energetika Nazirliyinin İctimaiyyətlə əlaqələr və

*informasiya təhlükəsizliyi* şöbəsi haqqında Əsasnamə”

2. “Azərbaycan Respublikası Energetika Nazirliyinin struktur bölmələrində inzibati və yardımçı vəzifələr üzrə vəzifə Təlimatları” təsdiq edilsin (əlavə olunur).

3. Nazirliyin aparatının bütün struktur bölmələrinin rəhbərləri bu əmr ilə təsdiq edilmiş əsasnamələrlə struktur bölmələrinə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsini və hüquqların həyata keçirilməsini, o cümlədən tabeliyində olan əməkdaşlar tərəfindən əmək və icra intizamına riayət edilməsinə nəzarət edilməsini təmin etsinlər.

4. İnsan resursları və dövlət qulluğu şöbəsi bu əmr ilə təsdiq edilmiş vəzifə təlimatlarının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

5. İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmr ilə təsdiq edilmiş nazirliyin aparatının və struktur bölmələrinin əsasnamələrinin və vəzifə təlimatlarının nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

6. Ümumi şöbə bu əmrin surətini nazirliyin aparatının bütün struktur bölmələrinə çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə edilsin.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

16 aprel 2018-ci il
№ 41